**UOT 94 (479.24)**
**https://doi.org/10.59849/2218-4783.2025.1.24**

**MUSA QULİYEV**

# AMAN (ƏMANULLA) XAN KƏNGƏRLİ-NAXÇIVANSKİ

*Məqalədə məşhur Kəngərli süvarisi Aman xan İsmayıl xan oğlu Naxçıvanskinin həyatından və fəaliyyətindən danışılır. Onun Sankt-Peterburqda Rusiya çarının saray qvardiyasında mühafizə xidmətində olmasından və Bəyazid döyüşlərində iştirak etməsindən də söhbət açılmışdır. Məqalənin yazılmasında arxiv sənədlərindən və çap edilmiş monoqrafiyalardan istifadə edilmişdir.*

**Açar sözlər:** *İsmayıl xan, Naxçıvan, ataman, Bəyazid, Hüseyn xan Naxçıvanski, Tiflis, Kəngərli süvarisi.*

**Giriş**. Göstərdiyi şücaətlərinə görə Qafqazın hərb tarixinin səhifələrinə adı qızıl hərflərlə yazılan məşhur hərbçi Aman (Əmanulla) xan İsmayıl xan oğlu Naxçıvanski (Ehsanxanov) 15 iyun 1845-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Onun doğum tarixi haqqında məlumat atası tam süvari generalı İsmayıl xanın 1895-ci ildə yazılmış xidmət kitabçasında göstərilmişdir. İsmayıl xanın xidmət kitabçası 1895-ci ildə tərtib olunmuşdur və Rusiya Dövlət Hərbi Tarix Arxivinin 409-cu fondunda saxlanılır [8]. O, babasının şərəfinə görə hərbi sənədlərdə familiyasını Ehsanxanov yazdırmışdır. İlk təhsilini ailə mühitində və babası I Ehsan xanın açdırdığı şəhər məktəbində almışdır.

Aman xan ilk dəfə 6 may 1865-ci ildə hərbi xidmətə Rusiya çarının xüsusi mühafizə dəstəsinin dördüncü manqasında silahdaşıyan kimi başlamışdır [3, s. 213]. Qeyd edək ki, o vaxt onun 19 yaşı vardı. Aman xanın atası Qafqazın həm məşhur generalı, həm də tanınmış ziyalılarından biri idi. 14 sentyabr 1865-ci ildə Aman xan Sankt-Peterburqda mühafizə dəstəsində fəaliyyətə başlayır. Həmin il noyabr ayının 1-də yunker (gənc zabit) olan Aman xan özünün fəallığı ilə seçilir [9, v. 83]. Burada dörd il xidmət edəndən sonra ordudan tərxis olunur və Naxçıvana qayıdır. 1869-cu il avqustun 21-də Naxçıvan polisində gizir kimi fəaliyyətini davam etdirir. Çar sarayında xidmət edərkən "İmperator Aleksandr Nikolayeviçin mühafizə xidmətinə görə" adlı gümüş medalla təltif olunmuşdur. Bu medal Anna lenti ilə birgə verilmişdi və boyundan asmaq üçün idi [9, v. 84].

Naxçıvan şəhərində işləyən və yaşayan Aman xan 1872-ci ildə Qarabağ xanı Mehdiqulu xanın nəvəsi Fatmabikə (Xanbikə) ilə ailə qurur [2, s. 54]. Xanbikənin anası şairə Xurşidbanu Natəvan Qarabağda atasının mülklərini idarə edirdi. Xurşidbanu həm ata, həm də ana tərəfdən Naxçıvan xanları ilə qohum idi. Onun atası Qarabağ xanları olmuş Cavanşirlərdən, anası isə Ziyadoğlu Qacarlardan olan Gəncə xanı Cavad xanın nəvəsi Bədircahan bəyim idi.

Aman xanın atasının nənəsi Tükəzban xanım İrəvan xanlarından – Dəvəli Qacarlardan olduğundan kəngərlilərlə bu tayfalar arasında qohumluq, bir növ, təzələnmişdi. Elə bu səbəbdən də Xurşidbanu Natəvan qızını ata-babalarının (hər iki tərəfdən) qohumları və sədaqətli dostları olan general İsmayıl xanın oğlu Aman xana ərə vermişdi. Xanbikənin atası Dağıstanın Qaraqaytaq (qumık) usmilərindən (xanlıqlarından) olan knyaz Xasay xan idi [2, s. 18-19].

1877-ci ildə rus-türk müharibəsi başlayanda Aman xan İrəvandakı qeyri-nizami süvari polkuna səfərbərliyə çağırılır. 1877-1878-ci illərdə Aman xan atası İsmayıl xanla, əmisi II Kalbalı xanla və digər yaxın qohumları ilə birlikdə bu müharibədə iştirak etmişdir. 6 iyun 1877-ci ildə Bəyazid ətrafında gedən döyüşlərdə Aman xan ağır yaralanır [5, s. 337]. 23 gün atası İsmayıl xanla birlikdə Bəyazid qalasında mühasirənin sözlə ifadə edilə bilməyəcək dəhşətlərini və faciələrini yaşayır. Tarixin ən amansız döyüşlərindən biri də Bəyazid vuruşması olub. Bu döyüşdə igid sərkərdə, general-leytenant İsmayıl xanın hünərləri isə hələ onun sağlığında başqalarının adına yazılıb.

Bu igid sərkərdələrin döyüş hünərləri barədə ermənilər özləri bildikləri yöndə yazmışlar. Moskvada və digər şəhərlərdə həqiqətdən uzaq kino filmlər quraşdırılmışdı. Gürcüstanda Milli Arxivdə axtarışlar apararkən İsmayıl xanın "Kavkaz" qəzetində müsahibəsinə rast gəldim. Müsahibəni general

İsmayıl xandan alan və çap etdirən Maqsud Əlixanov-Avarski olub. Qeyd edək ki, o, İsmayil xanın qardaşı Kalbalı xanın qızı Zərrintac bəyimin həyat yoldaşı olub. Bəri başdan onu da deyək ki, həmin illərdə Naxçıvanın taleyi İsmayıl xanın Bəyazidi necə müdafiə etməsindən çox asılı idi...

General-leytenant İsmayıl xan Naxçıvanskinin 12 aprel 1895-ci ildə "Kavkaz" qəzetində dərc edilən müsahibəsində həmin döyüşlərin amansızlığından və oğlu Aman xanın ağır yaralanmasından da söhbət açılıb:

"Bir il bundan əvvəl general Heyns məktubla məndən xahiş edirdi ki, ona Bəyazidin müdafiəsi barədə bildiklərimi yazım. Mən onun xahişini yerinə yetirə bilmədim. O vaxt da, indi olduğu kimi, fikrim belə idi ki, mənim söylədiklərim olub-keçənlərə sönük bir kölgə sala bilər.

Güllələr arı pətəyi kimi vızıldayırdı. Podpolkovnik Paçeviç ağır yaralandı və sabahı gün vəfat etdi. Öz gülləmiz, yaxud düşmən gülləsi dəydi, bunu qəti deyə bilmərəm. Çünki bu haqda müxtəlif fikirlər var idi. Ancaq Paçeviçi kürəyindən vurmuşdular... Belə bir epizoddan sonra elə bil ki, taleyin Bəyazid əzabkeşlərinə yazığı gəldi: leysan yağış yağdı. Həm su içmək, həm də ehtiyat su yığmaq imkanı yarandı. Bu suyu sonrakı günlər biz damla-damla işlədirdik. Günbəgün vəziyyətimiz pisləşirdi. Başqalarının keçirdiyi hisslər haqqında da uzun-uzadı danışmaq olardı. Qarnizonun rəhbəri kimi mən həmin vəziyyəti mühakimə edə bilərdim. Müharibənin 25-ci günü idi ki, mənim döşəyim daş piltələr üstündəki paltom idi. Mənimlə yanaşı, eyni vəziyyətdə başından qranat kontuziyası alan oğlum huşsuz yatırdı.

Neçə gün idi ki, ac idim. Paltarım əynimdə asılqanda olduğu kimi yellənirdi. Bu günlərdə bizi acından ölməyə qoymayan, adamlarımdan birinin qəbiristanlıqdakı küllükdən tapdığı türk peçenyeləri idi. Biz ikimiz həmin peçenyeləri bir həftə yedik. Amma aclıqdan dəhşətli susuzluq idi. Biz ötən 8 gün ərzində suyu qurtumlarla içirdik. Su isə cəmi 2 butulka iylənmiş yağış suyu idi. Unutmayın ki, yayın ən qızmar vaxtları idi. Qarnizonun yazıq atları! Mən bir neçə dəfə üzülüb əldən düşmüş, az qala tanınmayacaq dərəcədə dəyişən atlarıma baş çəkirdim. Onlarsa bunun əvəzində yavaş-yavaş öz başlarını mənə tərəf uzadırdılar və qurumuş dillərini sorurdular. Onların tutqunlaşmış gözlərində elə yalvarış var idi ki, mən özümü saxlaya bilmirdim, gözlərimdən yaş tökülürdü. Onlar hamısı susuzluqdan yıxılırdılar və hamısının təpədən dırnağa əti yeyilirdi" [4].

Aman xan 1877-ci ilin 19 dekabrında Rusiya çarının fərmanı ilə Saray Qvardiyasına məxsus kazak polkunda kornet (çar Rusiyasının süvari qoşunlarında zabit) rütbəsində hərbi xidmətə dəyişdirilir. 1878-ci il aprelin 25-də üçüncü dərəcəli Müqəddəs Anna (qılınclarla və bantla birlikdə) ordeni ilə təltif edilir. 28 mart 1882-ci ildə Qafqaz Hərbi Dairəsinin Baş Qərargahının sərəncamında olan kornet Aman xan poruçik hərbi rütbəsini alır. 9 aprel 1889-cu ildə o, Baş Qərargahda saxlanılmaqla ştabs-rotmistr hərbi rütbəsi ilə təltif olunur. 14 yanvar 1890-cı ildə Naxçıvanda yaşayan ştabs-rotmistr Aman xana təltif olunduğu İrana məxsus "Şir və Günəş" ordenini gəzdirməyə icazə verilir. 1894-cü ilin 31 dekabrınadək Aman xan podyasovul rütbəsi almışdır [3, s. 214].

Bir vaxtlar onun nəvəsi Əxtər xanım (Əkbər xanın qızı) bu sətirlərin müəllifinə söyləmişdi ki, babası Aman xan Vladiqafqazda kazak polkunda hərbi xidmətdə olub, özü də yüksək rütbədə. Hətta nəql edirdi ki, babama Naxçıvanda hamı "Ataman Aman xan" deyirdi. Aman xan Naxçıvanski ilə Xanbikə xanım Usmiyevanın nikahından Bəhram xan (1872- ?), Əkbər xan (1873-1961), Xaqan xan (? - ?), Kamran xan (? - ?), Ənvər xanım (? - 1910), Sənubər xanım (1888-1958) adlı övladları olmuşdur [5, s. 343]. Aman xanın vəfatından sonra Xanbikə xanım başqası ilə ailə qurmuş və Gəncəyə köçmüşdür. Ailənin bütün ağırlığı Bəhram xan və Əkbər xan qardaşlarının üzərinə düşmüşdür. Bacıları Sənubərlə Ənvəri Əkbər xan özü böyütmüşdür. Bu haqda Əkbər xan 1930-cu ildə NKVD-də istintaq zamanı məlumat vermişdir. Onun yazdığından məlum olur ki, 1921-ci ildə anası Xanbikə Ağdamda vəfat etmiş və İmarətdəki Cavanşirlər sərdabəsində dəfn edilmişdir [1]. Aman xanın övladlarını 1920-ci ildən sonra təzyiqlər, ölüm, məşəqqətli sürgünlər və qürbət həyatı haqlamışdır. Naxçıvanda və Lənkəranda şəhər başçısı işləmiş Bəhram xan övladları ilə birlikdə İrana mühacirət etmişdir. Əkbər xan uzun illər uzaq Arxangelskdə dəhşətli Solovetski monastırında, Sibirdə və Orta

Asiyada sürgünlərdə yaşamışdır. Kamran xanı 1919-cu ildə erməni daşnakları öldürmüşlər. Onun yetim qalan 3 övladını Əkbər xan böyütmüşdür. Aman xanın oğlu Xaqan xan Bəhmən Mirzə Qacarın qızı Əşrəf xanımla ailə qurmuş, 1919-cu ildən sonra ailəsi və övladları ilə birlikdə İrana mühacirət etmiş və Təbrizdə yaşamışdır [1, v. 31-34]. Aman xanın qızı Ənvər xanım podpolkovnik Fətəli Mirzə Qacarla ailə qurmuşdur. Aman xanın sonbeşik qızı Sənubər xanım isə görkəmli dövlət xadimi İsmayıl xan Ziyadxanovla ailə qurmuşdur [5, s. 343]. İsmayıl xan Gəncəli Ziyadoğlu Qacarlardan idi və Xanbikə xanımın qohumu idi. O, Moskva universitetini bitirmişdi. 1920-ci ildə bolşeviklər güllələmişlər. Aman xanın Naxçıvan şəhərində bir neçə mülkü olmuşdur. Əxtər xanımın dediyinə görə, Sovet hakimiyyəti onun mülklərini müsadirə etmişdi.

Ömrünün son illərini Naxçıvanda yaşayan, hərbi və mülki işlərlə məşğul olan Aman xan həm də Xok və Qıvraq kəndlərini idarə etmişdir. Xidmətləri müqabilində Rusiya hökuməti bu kəndləri tiyul olaraq ona bağışlamışdı. O, bu kəndlərdə maarif, mədəniyyət, quruculuq, təsərrüfat, ticarət işlərinə ciddi fikir vermiş və kənd sakinlərinə yaxından köməklik göstərmişdir. Məlumat üçün deyək ki, bu kəndlərin əhalisinin əksəriyyəti kəngərlilərdir (bu haqda sənədlər var – müəllif). Qıvraq kəndi Şahtaxtı gömrük-keçid məntəqəsinə yaxın yerləşdiyindən, o, burada qonaqlar üçün bir karvansara tikdirmişdi.

Aman xan Naxçıvanski 1895-ci ildə Naxçıvan şəhərində vəfat etmişdir. 23 iyul 1895-ci ildə Hərbi nazirliyin siyahısında vəfat edən hərbçilərin siyahısında qeyd olunmuşdur [3].

Burada bir məsələni də hökmən qeyd etməliyik. Tədqiqatçı alim Bəylər Məmmədov yazdığı monoqrafiyada onun vəfatı tarixini 1884-cü il göstərir [2]. Son illərin axtarışları göstərdi ki, bu fakt doğru deyil. Çünki onun sonbeşiyi Sənubər xanım 1888-ci ildə anadan olmuşdur. Aman xan Naxçıvan şəhərinin cənubunda yerləşən, İmamzadə türbəsinə bitişik olan I Kalbalı xan Kəngərlinin ailə sərdabəsində dəfn edilmişdir. Bu məlumatı ilk dəfə Əkbər xan Bəylər Məmmədova söyləmişdir. İmam türbəsinə xüsusi keçidlə bağlı olan iri günbəzli bina Naxçıvan xanlarının ailə sərdabəsidir [10, s. 107-108; s. 124-125].

Aman xan vəfat edəndə Əkbər xanın 18 yaşı vardı və o, atasının İmamzadə kompleksində dəfn olunduğunu yaxşı bilirdi. Aman xan vəfat edəndə atası İsmayıl xan sağ idi və onun Qafqaz Canişinliyində böyük nüfuzu vardı. Bir də ki, tapdığımız bir sənəddə Aman xan Bəyazid qəhrəmanı general İsmayıl xanın oğlu kimi yazılmışdır [7]. Məsələnin digər tərəfi də var. Həmin illərdə Qafqazın hər yerində xalq öz sevimli hərbçi oğullarını ibadətgahlarda dəfn edirdi.

Tiflisdəki Gürcüstan Milli Arxivindən tapdığımız sənədlərdə I Kalbalı xan İslamın tərəfdarı kimi göstərilmişdir [6]. Bu, həqiqətdir. I Kalbalı xan da öz babaları kimi Şah İsmayıl Xətainin sədaqətli davamçısı olmuşdur və onun rəhbərlik etdiyi Kəngərli süvariləri atlarının başlarına qırmızı kaporlar bağlamışlar. 1920-ci ilədək döyüşlərdə belə, qızılbaşlar olduqlarını gizlətməmişlər. Rəssamlar I Kalbalı xanın rəsmini çəkəndə bunu unutmamalıdırlar. Gürcü çarı ikinci İraklinin papağına diqqət etsək, bir çox məsələlər biz tədqiqatçılara aydın olar. II İrakliyədək müsəlman gürcü çarları şiə təriqətində olmuşlar. Təsadüfi deyil ki, I Kalbalı xan II İraklinin müsəlmanlığı qəbul etmiş oğlu Aleksandrı (İsgəndəri) Naxçıvanda və İrəvanda gizli terrorçulardan məharətlə qoruyurdu. Belə maraqlı bir haşiyədən sonra qayıdaq əsas mətləbimizə.

Aman xanın vaxtsız vəfatından sonra onun ailəsinə atası himayədarlıq etmişdir. 1908-ci ildə İsmayıl xan vəfat edir və Aman xanın övladları əziyyətlərlə üzləşməli olurlar. Aman xanın övladları Naxçıvanın yağılardan müdafiəsi və tərəqqisi üçün böyük işlər görmüşlər.

Gürcüstan Milli Arxivində Bəhram xana aid 38 səhifəlik maraqlı bir sənədlər qovluğu aşkarladıq [7]. Həmin sənədlər toplusunda bir tarixi məktub vardır. Gürcüstan Milli Arxivinin 13-cü fondunda saxlanılan bu məktubu (rusca) 1909-cu il dekabrın 9-da Sankt-Peterburqdakı saray qvardiyasının süvari polkunun komandiri Hüseyn xan Naxçıvanski yazıb və imzalayıb. Məktub Qafqaz Canişinliyində işləyən dəftərxana rəisi N.L.Petersona ünvanlanıb. Məktubda deyilir: "Mənim rəhmətlik əmim süvari generalı, Georgi ordeninin kavaleri və Bəyazid qəhrəmanı İsmayıl xan Naxçıvanskinin xidmətlərini nəzərə alaraq belə qərara gəldim ki, sizə xahişlə müraciət edim.

Onun nəvəsi Bəhram xan bu yaxınlarda həyat yoldaşını itirib. Bu səbəbdən Tiflisə köçüb. Əlahəzrət canişinin sarayında xidmət etmək istəyir.

Məktuba yaddaş qeydlərini də əlavə edirəm.

Xahiş edirəm, dərin hörmətlə, inamla və sədaqətlə

Xan Naxçıvanski" [7, v. 1].

Qeyd edək ki, Bəhram xan Qafqaz Canişinin sarayında xüsusi tapşırıqlar üzrə məmur vəzifəsində işləmək üçün ərizə vermişdi. General Hüseyn xan bu səbəbdən Petersona yuxarıdakı məktubu göndərmişdi. Bəhram xana aid yaddaş qeydlərini Hüseyn xan Naxçıvanski belə yazıb: "Naxçıvan şəhərinin başçısı, titulyar müşavir Bəhram xan Naxçıvanski 1904-cü ildən 1907-ci ilədək İrəvan Quberniyasının yanında xüsusi tapşırıqlar üzrə məmur işləyib. Saray qvardiyasındakı Əlahəzrətin kazak polkunun podyasovulu (yəni ştabs-kapitan) Əmanulla xan Naxçıvanskinin (hazırda rəhmətə gedib) oğlu süvari generalı İsmayıl xan Naxçıvanskinin nəvəsi" [7, v. 2].

**Nəticə.** Qafqazın hərb tarixində doğma Naxçıvanımızın adını yüksəklərə qaldıran, igidliyi ilə məşhur olan Aman xan Naxçıvanski intizamlı və bacarıqlı bir döyüşçü olmuşdur. Rusiya çarının saray qvardiyasında mühafizəçi işlədiyi illərdə, həmçinin Naxçıvan polisində xidmət etdiyi zaman fərqlənən bir hərbçi olmuşdur. Aman xan saray qvardiyasına məxsus kazak süvari polkunda hərbi xidmətdə olarkən "Ataman" rütbəsinədək yüksəlmişdir. Ataman rütbəsi isə ancaq qeyri-adi döyüş hünərləri göstərən süvari döyüşçülərə verilirdi. O, hələ çox gənc ikən atası ilə birlikdə Bəyazid döyüşlərində iştirak etmişdi. Onun övladlarının kədərli taleyi olmuşdur. Amma onları təqiblər və sürgünlər, hətta xarici ölkələrə mühacirət qorxutmamışdır. Onlar hər zaman doğma Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın azadlığı uğrunda mübarizə aparmışlar.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti. Протокол допроса Акпер хана Нахичеванского, от 20 февраля 1929 г., № 2. Дело АГПУ АССР № 637 "По обвинению Нахичеванского Акпера Амановича", 68 л.
2. Məmmədov B. Xurşudbanu Natəvan. Bakı, 1983, 158 s.
3. Исмаилов Э.Э. Азербайджанцы в конвое Российских императоров. Москва, 2018, 256 с.
4. Газета «Кавказ», 1895, 12 апреля.
5. Нагдалиев Ф.Ф. Ханы Нахичеванские в Российской Империи. Москва, 2006, с. 337.
6. Национальный Архив Грузии: Ф. 2, оп. 1, д. № 1981, 4 л.
7. Дело о Бахрам хане Нахичеванском. Национальный Архив Грузии: Ф. 13, оп. 13, д. № 28, 38 л.
8. РГВИА (Российский Государственный Военно-исторический Архив): Ф. 409, оп. 1, д. № 80-978/5.
9. РГВИА: Ф. 330, оп. 55, д. № 1406.
10. Сысоев В.М. Нахичевань на Араксе и древности Нах.АССР. Баку, 1929, 316 с.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: kuliyevm@yandex.ru***

**Musa Guliyev**

## AMAN (AMANULLA) KHAN KANGARLI-NAKHCHIVANSKİ

This article discusses the life and work of the famous cavalryman Aman khan Ismayil khan oglu Nakhchivanski. The author also discusses his service in the convoy of the St. Petersburg Tsarist Life Guards and his participation in the battles of Bayezid. Archival documents and published monographs were used in writing the article.

**Keywords:** *Ismayil khan, Nakhchivan, ataman, Bayezid, Hussein khan Nakhchivanski, Tiflis, Kangarli cavalry-man.*

**Муса Гулиев**

## АМАН (АМАНУЛЛА) ХАН КЕНГЕРЛИ-НАХЧЫВАНСКИЙ

В статье говорится о жизни и деятельности известного кавалериста Аман хана Исмаил хан оглы Нахчыванского. Сообщается также о его службе в конвое Санкт-Петербургской царской Лейб-гвардии и участии в сражениях при Баязиде. В написании статье использованы архивные документы и опубликованные монографии.

**Ключевые слова:** *Исмаил хан, Нахчыван, атаман, Баязит, Гусейн хан Нахчыванский, Тифлис, Кенгерлинский кавалерист.*

*(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 14.03.2025**
**Son variant 07.04.2025**